Aydın Mədətoğlu

Bizim yazar

Türklərə qarşı xristian dünyası və erməni münasibətlərinin xronologiyası

«Haylar tarixin heç bir dövründə «millət» kimi mövcud olmamışlar. Onlar həmişə Asiyanın geniş çöllükləri boyunca dağınıq halda yaşamış və tanınmış bir xalq sırasına daxil edilecek heç bir ümumi cəhətləri olmamışdır» (Məsud Əxtar Şeyx, İslamabad, Pakistan, Yalanlar, yalanlar, bir daha yalanlar. Türklərə qarşı erməni uydurmaları və iddiaları. İngilis dilindən tərcümə edəni Babək Seyfeddinoğlu, Bakı 2008, səh.20).

«Ermənilər məhəlli səviyyədə tanınırdılar. Onların milli birlik hissi olmamışdır. Onlar arasında heç zaman siyasi bağlılıq mövcud deyildi. Onların yeganə bağlılığı qonşuluq idi. Beləcə, ermənilərin milli hissləri məhəlli xarakterdə idi» (Aslan Kevork, L. Armenie et les Armenians, İstanbul 1914).

Ermənilərin birgə yaşadıqları torpaqlar heç vaxt özləri tərəfindən müstəqil, suveren bir dövlət kimi idarə olunmamışdı. Ermənilərə aid ilk məlumat eradan əvvəl 521-ci ilə aiddir. Onların yaşadıqları bu ərazilər Əhəmənilərin bir əyaləti olmuşdur. Əhəməni şahı Daraya qarşı qiyam qaldırmış, lakin güclü Əhəməni ordusu qarşısında pərişan olan ermənilər Pers ordusunda Makedoniyalı İsgəndərə qarşı savaşa zorlanmışdılar (Seçmələr bizimdir - A.M. Bax: Mehmetzadə Mirza Bala, Ermənilər və İran, İstanbul 1927, səh. 14).

Eradan əvvəl 521-ci ildən 344-cü ilə qədər Persiyanın bir əyaləti olan bu ərazilər sonra Makedoniya İmperiyasının ərazisinə qatılmış və 215-ci ilə qədər bu statusda saxlanılmışdı. 25 il Sələvkilərin hakimiyyəti altında qaldıqdan sonra bu ərazilər tez-tez Roma İmperatorluğu ilə Əşkanilər (Parfiya) arasında əldən-ələ keçmişdir. Bizim eranın 220-ci ilindən V əsrin əvvəllərinə qədər bu ərazilər Sasani İmperiyasının, VII əsrədək Bizans İmperiyasının əyaləti olmuşdur. Sonra isə ərəblər bu əraziləri ələ keçirmiş və X əsrə qədər idarə etmişlər. Sonra Bizans İmperiyası buranı ərəblərdən geri almış və XI əsrə qədər idarə etmişlər. Bütün bu əsrlər boyu ermənilər dağınıq halda, kiçik icmalar şəklində yaşamışlar. Ermənilərin ən böyük səlahiyyət dairələri ətrafdakı kiçik qəzalara rəhbərlik edən feodal zadəganlar səviyyəsində olmuşdur. 1071-ci ildə baş vermiş tarixi «Malazqırt zəfəri»ndən sonra ermənilərin yaşadıqları ərazilər Səlcüqlu Türklərinin əlinə keçmişdi. Müxtəlif imperiyaların tabeçiliyində əsrlərlə milli azlıq olaraq ikinci dərəcəli insanlar kimi yaşayan ermənilər Türk hökmranlığı altında öz tarixlərinin «qızıl dövrləri»ni yaşamağa başlamışdılar.

1453-cü ildə Osmanlı Türklərinin İstanbulu fəth etməsindən sonra Türklər Bursanın erməni keşişini Osmanlı İmperiyasında ermənilərin siyasi-dini lideri təyin etmiş, beləliklə, ermənilər tarixdə heç vaxt görünməmiş yalnız dini azadlıq deyil, həm də Osmanlı İmperiyasının bərabərhüquqlu vətəndaşları kimi söz sahibliyi əldə etmişdilər. Onları uzun əsrlər boyu Osmanlı İmperiyasının «sədaqətli» vətəndaşları kimi sülh və tərəqqi şəraitində yaşamış, Osmanlı İmperiyasının ən zəngin tərkib hissəsinə çevrilmişdilər. (Seçmələr bizimdir - A.M. Bax: Məsud Əxtar Şeyx, göstərilən əsəri, səh 21,22).

Bütün bunlara baxmayaraq "erməni xisləti" öz iç üzünü göstərmiş, xristian ağalarına qulluq etməyi üstün tutmuş, Osmanlı İmperiyasının çökməsi üçün əllərindən gələni əsirgəməmişlər.

Ermənilərə xüsusi simpatiya bəsləyən rus yazıçısı Stankeviç «Rusiya millətlərinin müqəddəratı» adlı yazısında göstərir ki: «ermənilər osmanlılar ilə iranlıların əlindən qurtulub, yabançı bir millətin yardımı ilə bağımsız olmağı daima istəmişlər. Bu məqsədlə Knez Ori adlı bir erməni Avropa saraylarını dolaşdıqdan sonra rus çarı I Pyotra baş vurmuş, Pyotrdan yardım sözünü aldıqdan sonra vətəninə dönərkən Həştərxan şəhərində ölmüşdü. Pyotr həqiqətən də 1722-ci ildə İran üzərinə bir ordu göndərmiş, lakin bu ordu yalnız Dərbəndi işğal etmişdi. Pyotr Qarabağ məliklərinə Səfəvilərə qarşı qiyam qaldırıb bağımsızlıqlarını əldə etməyi tövsiyə etmişdi. II Yekatrina dövründə rus ordusu Anadolunun bir neçə bölgəsini işğal etməyi bacarsa da, burada uzun müddət qalmayıb təcili geri dönmüşdü».

1790-cı ildə Qafqazda yaşayan və kiçik azlıq təşkil edən ermənilər Osmanlı və Qacar Türklərinə qarşı ixtişaşlar törətməyə başlamış, ***haribələr nəticəsində çoxlu sayda müsəlman qətlə yetirilmiş və mühacirət etməyə məcbur olmuş, bu mühacirlər tərəfindən boşalan ərazıyə ermənilər yerləşmişdi. Bu ərazilərdən biri də Qarabağ idi. Bu, bir tərəfdən xristian ermənilər tərəfindən yardım edilmiş Rusiya İmperiyasının, digər tərəfdən də Osmanlı və Qacar dövlətlərinin Şərqi Anadolu və Qafqaz əhalisinin əsas etnik parçalanmasının başlanğıcı idi. Ruslar İrəvan xanlığını istila edəndən sonra erməni əyalətinə çevrilmiş bu ərazinin müsəlman əhalisinin demək olar ki, üçdə ikiçini bu ərazidən köçməyə məcbur etmişdilər. Ruslar Şərqi Anadolunu işğal etdikləri zamanlarda ermənilər ruslara kömək etməyə getmişdilər.*** Müharibə zamanı ruslara kömək etmiş ermənilər rusların müharibənin sonunda Şərqi Anadolunu tərk etməsi ilə Osmanlı Türklərinin cavab tədbirlərindən qorxaraq, rusların təzyiqi ilə köçmüş olan müsəlmanların ərazilərinə köç etməyə məcbur olmuşdular. Bütün bu hadisələrin son nəticəsi olaraq, Anadolu müsəlmanları və buranın vətəndaşları olan ermənilər arasında inamsızlıq və barışmaz ziddiyyətlər əmələ gəlmişdi. Ruslar özlərinin imperialist strategiyasının təməl daşını elə osmanlı cəmiyyəti arasında olan bu parçalanma əsasında qoymuşdu. Bu, Rusiya imperiyasının Aralıq dənizinə və körfəzin isti sularına çıxış əldə etmək üçün çoxillik siyasəti idi. Bu planı hazırlayanlar yaxşı bilirdilər ki, Osmanlı İmperiyasını parçalaya bilmək üçün ən yaxşı yol burada yaşayan qeyri-müsəlman azlıqlarını dövlətə qarşı qaldırmaq və bundan bir alət kimi istifadə etməkdir. Rusların bu azlıqları Osmanlı Türklərinə qarşı qaldırmaqda əsas məqsədi Osmanlı İmperiyasını bir neçə müstəqil və asan ələ keçirə biləcəyi zəif dövlətlərə parçalamaqdan ibarət idi. Bu plana görə, Rusiya Balkanlarda slavyanlara və yunanlara, Şərqi Anadolu və Qafqazda isə ermənilərə əl uzatmışdı. Bu strategiyanın Rusiyaya bir sıra fayda gətirəcəyi gözlənilirdi. Bu strategiyaya görə, Osmanlı İmperiyası zəifləyəcək, onun qüvvəsi azalacaq ki, bu da Rusiyanın Osmanlı İmperiyasını aradan götürmək niyyətini asanlaşdıracaq.

Rusiya üçün böyük strateji əhəmiyyəti olan region asanlıqla tabe oluna biləcək kiçik dövlətlərə bölünəcək, bununla da Rusiya bu regionda öz maraqlarını qorumaq üçün bu qeyri-müsəlmanlardan istifadə edə biləcəkdi. Bütün bunlar üçün Rusiya tərəfindən bu xalqların hər birinə ayrı-ayrılıqda kompensasiya vəd etməli idi. Rusiyanın bu qeyri- müsəlmanları inandırmaq üçün ən yaxşı tələsi onlara müstəqillik vəd etməsi idi

Rusiya üçün böyük strateji əhəmiyyəti olan region asanlıqla tabe oluna biləcək kiçik dövlətlərə bölünəcək, bununla da Rusiya bu regionda öz maraqlarını qorumaq üçün bu qeyri-müsəlmanlardan istifadə edə biləcəkdi. Bütün bunlar üçün Rusiya tərəfindən bu xalqların hər birinə ayrı-ayrılıqda kompensasiya vəd etməli idi. Rusiyanın bu qeyri- müsəlmanları inandırmaq üçün ən yaxşı tələsi onlara müstəqillik vəd etməsi idi. (Seçmələr bizimdir - A.M. Bax: Məsud Əxtar Şeyx, göstərilən əsəri, səh. 36, 37, 38).

Bu işdə slavyanların və yunanların bəxti kifayət qədər gətirmişdi. Onlar yaşadıqları ərazilərdə əhalinin əsas hissəsini təşkil etdikləri halda, ermənilər yaşadıqları ərazilərin heç birində üstünlük təşkil etmirdilər. Həmçinin slavyanlar və yunanların xüsusi bir millət olmaq üçün hər cür xüsusiyyətləri olduğu halda, ermənilər bütün tarix boyu bu xüsusiyyətlərdən məhrum idilər. Ona görə də, Rusiya ilk növbədə müstəqil dövlət qurmaları üçün ermənilərin beyninə şovinist hisləri aşılamağı öz üzərinə götürmüşdü. Hətta Rusiya Osmanlılardan torpaq qoparmaq üçün ermənilərə yardım göstərmiş, ermənilərin Qafqazda bir «Ermənistan» adlı dövlət qurmağa və bu dövlətin gələcəkdə «Osmanlı Ermənistanı» ilə birləşib «Böyük Ermənistan» adlı dövlət vəd edərək onları şirnikləndirmişdi.

Ermənilərin Rusiya ilə əməkdaşlığı 1813-1828-ci illərdə onların Qafqazda Qacarlara qarşı müharibədə rusları hərtərfli təchiz etməsindən sonra konkret bir forma almış, ruslar bu regionda Qacarların sahib olduqları bir sıra əraziləri ələ keçirmişdi ki, bu ərazilərə ermənilərin məskunlaşdığı ərazilər də daxil idi. Rusiya çarı I Aleksandr dövründə «Gülüstan müqaviləsi»ilə Qarabağ xanlığı Rusiyaya ilhaq edilmiş, «Türkmənçay müqaviləsi» ilə Naxçıvan və İrəvan xanlıqları da Rusiya hakimiyyəti altına keçmiş, bütün Quzey Azərbaycan Rusiya İmperatorluğuna birləşdirilmişdi.

(ardı gələn sayımızda)